

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

20 avqust 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 31 (3794)


# Qlobal nüfuzun təzahürü



## Yeni dünya nizamında Azərbaycan geoiqtisadi güc kimi çıxış edir

**Azərbaycanın xarici siyasət kursu regional sərhədləri aşaraq qlobal miqyasda həlledici nüfuz qazanıb. Bu gün ölkəmiz yalnız Cənubi Qafqazın deyil, Avrasiyanın vacib nəqliyyat, enerji və "yaşıl keçid" qovşağı kimi qlobal siyasi masada aparıcı mövqeyə sahibdir. Bu nüfuzun ən bariz göstəricisi Azərbaycanın dünyanın ən nəhəng iqtisadiyyatlarını bir araya gətirən G20 sammitinə dəvət edilməsidir.**

ABŞ Prezidenti Donald Tramp tərəfindən Prezident İlham Əliyevin cari il dekabrın 14-15-də Mayamidə keçiriləcək G20 sammitinə dəvət olunması Bakının qlobal siyasət və iqtisadiyyat xəritəsindəki yerini köklü şəkildə dəyişən geostrateji hadisədir. Sammitə Azərbaycanın dəvət olunması, sadəcə, növbəti tədbir deyil, ölkəmizin qlobal çəkisinin beynəlxalq səviyyədə qəbuludur. G20 sammiti dünyanın aparıcı iqtisadiyyatlarını bir araya gətirən beynəlxalq platformadır. Bakının bura dəvəti göstərir ki, Vaşinqton və digər aparıcı paytaxtlar Azərbaycanı qlobal problemlərin həllinə töhfə verən güc mərkəzi kimi görürlər.

Həmçinin Birləşmiş Ştatların təşkilatçılığı ilə baş tutacaq bu sammitə məhdud sayda qonaq ölkənin dəvət edilməsi Azərbaycanın regional çərçivədən çıxaraq qlobal miqyasda aparıcı aktora çevrildiyini nümayiş etdirir.

Ölkəmizin Böyük İyirmiliyə dəvəti təsadüfi diplomatik jest deyil. Vətən müharibəsində ərazi bütövlüyünü və suverenliyini bərpa edərək yeni geosiyasi reallıq yaradan Azərbaycan regiona davamlı sülh və qarşılıqlı iqtisadi inteqrasiya modeli gətirib.

Azərbaycanın diplomatik uğurları davamlı həyata keçirilən məqsədyönlü xarici siyasət strategiyasının məntiqi nəticəsidir. Rəsmi Bakı BMT Təhlükəsizlik Şurasından başlayaraq, Qoşulmama Hərəkatı və D-8 kimi nəhəng platformalarda yalnız fəal iştirakçı kimi deyil, qlobal problemlərin həllinə real töhfələr verən təşəbbüskar dövlət kimi təsdiqlənib. Təşkilatlara uğurlu sədrlik təcrübəsi, beynəlxalq hüququn aliliyini müdafiə edən qətiyyətli mövqe və qlobal böhranlar zamanı nümayiş etdirilən liderlik Azərbaycanı dünya siyasətinin etibarlı tərəfdaşına çevirib.

Xüsusilə Cənubi Qafqazda formalaşan yeni geostrateji reallıqlar ölkəmizin beynəlxalq müstəvidə çəkisini köklü şəkildə artırıb. İşğala son qoyulması, ardınca isə Vaşinqton sülh prosesi çərçivəsində atılan tarixi addımlar göstərdi ki, Azərbaycan regionda təhlükəsizliyin və sabitliyin əsas təminatçısıdır. İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Cənubi Qafqaz qarşıdurma məkanından Şərqlə Qərb, Şimalla Cənub arasında mühüm iqtisadi-logistik əməkdaşlıq qovşağına transformasiya olunub. Məhz bu regional liderlik, genişlənən nəqliyyat-enerji infrastrukturu və sülh gündəliyinə verilən strateji töhfələr ABŞ Prezidenti Donald Tramp tərəfindən Azərbaycanın G20 Mayami sammitinə dəvət edilməsini şərtləndirən başlıca amillərdir. Bu mötəbər platformaya dəvət göstərir ki, Prezidentin müdrik siyasəti sayəsində Azərbaycan müasir dünya nizamında rolu olan, şərtləri diktə edən və sülhü təmin edən aparıcı dövlətdir.

Mayami sammiti Azərbaycan üçün təkcə iqtisadi müzakirələr meydanı deyil, həm də Vaşinqton sülh gündəliyinin nəticələrini qlobal səviyyədə təqdim etmək və Trans-Xəzər geoiqtisadi layihələrini birbaşa dünyanın ən böyük iqtisadiyyatlarının gündəliyinə inteqrasiya etmək üçün unikal imkandır.

# Bakı-London əlaqələrində yeni mərhələ

## Yeni səfirin etimadnaməsi qəbul edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 18-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dankan Normanı qəbul edib. Etimadnaməsini dövlətimizin başçısına təqdim edən səfir çıxışına Azərbaycan dilində başlayaraq iki ölkə arasındakı münasibətlərdə yeni səhifə açmaqdan şərəf duyduğunu bildirib.

Dövlət başçısı səfirə Bakıda xoş vaxt keçirməyi arzulayıb, onun Azərbaycan dilində danışmasını yüksək qiymətləndirib. Minatəmizləmə sahəsində yardıma görə Böyük Britaniya Hökumətinə minnətdarlığını ifadə edən dövlət başçısı bu sahədə ölkəmizin daha sıx beynəlxalq əməkdaşlığa ehtiyacı olduğunu bildirib. Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzulayıb.

# Azərbaycan-Ukrayna dostluğu

## Prezident İlham Əliyev Viktor Yuşşenko ilə görüşüb

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda səfərdə olan Ukraynanın sabiq Prezidenti Viktor Yuşşenko ilə görüşüb. Görüşdə Azərbaycan-Ukrayna münasibətlərinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və əlaqələrin gələcək perspektivləri barədə fikir mübadiləsi aparılıb. Görüş zamanı Ukraynanın Azərbaycandakı səfiri tərəfindən Prezident İlham Əliyevə "İrpen şəhərinin fəxri vətəndaşı" vəsiqəsi də təqdim edilib.

# Berlin səfərinin diplomatik nəticələri

## Almaniya Azərbaycana yeni səfir göndərib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dirk Lölkeni qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Ötən ay Almaniyaya rəsmi səfərini məmnunluqla xatırlayan dövlət başçısı səfər zamanı Prezident Frank-Valter Ştaynmayer və Kansler Fridrix Merts ilə ikitərəfli əlaqələr və beynəlxalq məsələlər üzrə yaxşı müzakirələrin aparıldığını vurğulayıb.

Dövlət başçısı səfirin Azərbaycanda fəaliyyətə onun Almaniyaya rəsmi səfərindən sonra başladığını vurğulayaraq, bunun ikitərəfli əlaqələrin gələcək inkişafı baxımından çox önəmli olduğunu diqqətə çatdırıb. Dövlət başçısı səfirə fəaliyyətində uğurlar arzulayıb. Yeni səfir Almaniya hökumətinin Prezident İlham Əliyevin səfərinin nəticələrindən çox məmnun olduğunu qeyd edərək qəbula görə minnətdarlığını bildirib.

# Uşaqları qorumaq gələcəyi qorumaqdır

## Kibermәkanda uşaqların təhlükəsizliyi rəqəmsal gələcəyin əsas şərtidir

İnternet artıq uşaqların da gündəlik həyatının bir parçasıdır. Sosial şəbəkələr, onlayn təhsil platformaları, rəqəmsal xidmətlər və süni intellekt imkanları onların öyrənmək, ünsiyyət qurmaq, dünyanı tanımaq və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək imkanlarını xeyli genişləndirib. Ancaq virtual mühit uşağın qarşısına real həyatda rastlaşmadığı yeni təhlükələr də çıxarır.

Kibertəqib, şantaj, şəxsi məlumatların ələ keçirilməsi, saxta hesablar, dələduzluq, yaşa uyğun olmayan məzmun, müxtəlif manipulyasiya üsulları uşağın psixoloji durumuna və təhlükəsizliyinə ciddi təhdid yaradır.

*(Ardı 2-ci səhifədə)*

# Qardaşlıq və təcrübə mübadiləsi

## Hərbi İnstitutda türkiyəli zabitlərin yeni heyəti işə başladı

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunda bir il müddətində müəllim kimi fəaliyyət göstərmiş Türkiyə Respublikası Jandarm Baş Komandanlığının zabit heyətinin yolasalma, onları əvəz edən yeni zabitlərin isə təqdimolunma mərasimi keçirilib.

Tədbirdə Azərbaycan ilə Türkiyə arasında mövcud olan qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə olduğu kimi, hərbi təhsil istiqamətində də uğurla inkişaf etdiyi vurğulanıb.

*(Ardı 2-ci səhifədə)*


Kibercinayətkar qruplaşmalara qarşı əməliyyat 3




Avtomobildə təhlükəsizlik nədən başlayır? 3



Müasir texnologiyaların yaratdığı yeni təhlükələr 4



Polis əməkdaşının beynəlxalq uğuru 4



# Respublika Xəbərləri

### Prezident qanunu təsdiqləyib

Prezident İlham Əliyev dövlət əmlakının, o cümlədən dövlət torpaqlarının qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan əmlakla dəyişdirilməsinə hüquqi əsas yaradan qanunu təsdiqləyib. Özəlləşdirilməsi qadağan olunan və dövlətin müstəsna mülkiyyətində olan torpaqlar bu mübadiləyə daxil edilməyəcək. Dəyişdirilən əmlakın qiyməti bazar qiyməti nəzərə alınmaqla qiymətləndirici tərəfindən müəyyənləşdiriləcək.

### Əhalinin sayı artıb

2026-cı il iyulun 1-nə Azərbaycanın əhalisinin sayı ilin əvvəlindən 11 099 nəfər artaraq 10 milyon 273 min 450 nəfərə çatıb. Əhalinin 54,3 faizini şəhər, 45,7 faizini kənd sakinləri təşkil edir. Onların 49,8 faizi kişilər, 50,2 faizi isə qadınlardır.

### Üç kəndə növbəti köç

"Böyük Qayıdış" proqramı çərçivəsində növbəti köç karvanları Şuşanın Kiçik Qaladərəsi, Xocavəndin Quzeyxırman və Güneyxırman kəndlərinə çatıb. Bu mərhələdə ümumilikdə 50 ailə olmaqla 224 nəfər doğma yurduna qayıdıb. Kiçik Qaladərəsinə 11 ailə – 39 nəfər, Quzeyxırmana 18 ailə – 82 nəfər, Güneyxırmana isə 21 ailə – 103 nəfər köçürülüb. Sakinlərə yeni mənzillərinin açarları təqdim olunub.

### Azərbaycanın tranzit rolu genişlənir

Azərbaycan Orta dəhlizdə açar ölkə kimi qlobal nəqliyyat-logistika sistemində mövqeyini gücləndirir. Ölkə həm avtomobil və dəmir yolu daşımalarının, həm də Mərkəzi Asiyada istehsal olunan "yaşıl enerji"nin Avropaya tranzitində rolunu artırmağı hədəfləyir. Eyni zamanda, Trans-Xəzər Fiber-Optik Kabel layihəsi Azərbaycanın Avropa ilə Çin arasında rəqəmsal bağlantıda əhəmiyyətini artırır. Yeni layihələrin həyata keçirilməsi ölkənin nəqliyyat, enerji və rəqəmsal rabitə üzrə qlobal tranzit qovşağına çevrilməsinə imkan yaradır.

### Azərbaycana miqrasiya çoxalıb

Azərbaycana daimi yaşamaq üçün gələnlərin sayı artıb. Bu ilin ilk yarısında ölkəyə 2 085 nəfər daimi yaşamaq məqsədilə gəlib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu göstərici ilin ilk altı ayı üzrə qeydə alınıb.

### Qarabağda yaradıcılıq dərsləri başlayıb

Qarabağ və Şərqi Zəngəzura qayıdan uşaqların asudə vaxtının səmərəli təşkili və yaradıcılıq potensialının üzə çıxarılması məqsədilə yeni layihəyə başlanılıb. "Yenidən doğulan torpağın övladları" layihəsi çərçivəsində Cəbrayılın Horovlu kəndində rəsm, ədəbiyyat, teatr, musiqi və sağlam həyat tərzi üzrə ustad dərsləri keçiriləcək. Təlimlər uşaqların yaradıcılıq qabiliyyətlərinin inkişafına və sosiallaşmasına dəstək verəcək.

### Xarici ticarət genişlənib

Bu ilin yanvar-iyul aylarında Azərbaycanın xarici ölkələrlə ticarət dövriyyəsi 29 milyard 216 milyon ABŞ dolları təşkil edib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Nəticədə xarici ticarətdə 9 milyard 455 milyon dollarlıq müsbət saldo yaranıb.

### Minalardan təmizləmə davam edir

İşğaldan azad edilmiş ərazilərdə avqustun 10-dan 16-dək tank və piyada əleyhinə minalar, eləcə də digər partlayıcı hərbi sursatlar aşkarlanaraq zərərsizləşdirilib. Həmin müddətdə 1700,4 hektar ərazi minalardan təmizlənib.

### Qaz nəqli artıb

Bu ilin yanvar-iyul aylarında Azərbaycanın magistral qaz kəmərləri ilə 23 milyard 989,9 milyon kubmetr qaz nəql olunub. Ötən ilin eyni dövrü ilə müqayisədə qaz nəqli 2,4 faiz artıb. Ümumi nəqlin 55,8 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz Boru Kəmərinin payına düşüb.

### Regionlararası forum keçiriləcək

Avqustun 22-də Daşkənddə Azərbaycan-Özbəkistan IV Regionlararası Forumu keçiriləcək. Forum iki ölkə arasında ticarət-iqtisadi, investisiya və regionlararası əməkdaşlığın inkişafına xidmət edəcək. Azərbaycandan müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlər forumda təmsil olunacaq.

### Azərbaycan-Belarus əməkdaşlığı genişlənir

Azərbaycan və Belarus arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu təsdiqlənib. Sənəd iki ölkənin statistika qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsini nəzərdə tutur.

# Uşaqları qorumaq gələcəyi qorumaqdır

## Kibermәkanda uşaqların təhlükəsizliyi rəqəmsal gələcəyin əsas şərtidir

*(Əvvəli 1-ci səhifədə)*

Bu səbəbdən uşaqların müdafiəsi haqqında danışarkən artıq onların internetdəki fəaliyyətini də nəzərə almaq lazım gəlir.

### ►Uşaq hüquqlarının qorunması prioritetdir

Elə bu zərurətdən irəli gələrək Azərbaycanda uşaqların hüquqlarının qorunması dövlət siyasətində əsas yerlərdən birini tutur. Məsələn, uşaqları yaş xüsusiyyətlərinə uyğun gəlməyən məlumatlardan müdafiə etmək üçün "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanun qəbul edilib. Eləcə də Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyası" ölkənin bu sahədə sistemli siyasətinin əsas sənədləri sırasında yer alır.

Azərbaycanın rəqəmsal inkişaf xətti göstərir ki, texnoloji yeniliklərin tətbiqi insanın təhlükəsizliyi və dövlətin milli maraqları ilə uzlaşdırılır. 2026–2028-ci illər üçün rəqəmsal inkişafın sürətləndirilməsinə dair Fəaliyyət Planında rəqəmsallaşma, süni intellekt, innovasiya ekosisteminin inkişafı və kibertəhlükəsizlik mühüm istiqamətlər kimi müəyyənləşdirilib. Bir neçə ay əvvəl Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə keçirilən müşavirədə də rəqəmsal transformasiya, elektron dövlət xidmətləri, süni intellekt və kibertəhlükəsizlik məsələlərinə geniş yer ayrılıb.

Uşaqların sosial şəbəkələrdən istifadəsi ilə bağlı qanunvericilikdə atılan son addımlar da bu siyasətin davamıdır. Milli Məclisdə qəbul edilən, 16 yaşadək uşaqların sosial şəbəkələrdən istifadəsi zamanı müdafiəsini nəzərdə tutan yeni hüquqi yanaşma rəqəmsal təhlükəsizlik məsələsinin aktuallığını bir daha göstərir.

### ►Uşaqlar internetdən təhlükəsiz istifadə etməyi bacarmalıdırlar

Əlbəttə, uşağı internetdən tam uzaqlaşdırmaq da olmaz və qanunvericilikdə aparılan təkmilləşdirmələr heç də interneti uşağın üzünə qapamır. Texnologiyanın inkişaf sürətini azaltmaq mümkün olmadığı kimi, uşaqları rəqəmsal dünyadan kənarda saxlamaq da çıxış yolu deyil. Çünki müasir uşaq rəqəmsal dünyanın içində böyüyür və gələcəkdə onun təhsilinin, peşəsinin, ünsiyyətinin böyük hissəsi texnologiya ilə bağlı olacaq. Deməli, burada əsas vəzifə uşağa bu imkanlardan təhlükəsiz istifadə etməyi öyrətməkdir.

Yəni uşaq şübhəli linki tanımağı, şəxsi məlumatlarını paylaşmamağı, saxta hesabları ayırd etməyi, tanımadığı şəxslərlə ünsiyyət zamanı ehtiyatlı davranmağı bacarmalıdır. Kibertəqib, şantaj və ya təhdidlə qarşılaşdıqda bunu gizlətmək əvəzinə valideyninə, müəlliminə və ya aidiyyəti qurumlara müraciət etməyin vacibliyini anlamalıdır. Üstəlik, süni intellektin sürətli inkişafı məsələni bir qədər də mürəkkəbləşdirib. Dipfeyk görüntülər, saxta səslər, avtomatlaşdırılmış manipulyasiya və şəxsi məlumatlardan istifadə etməklə yaradılan materiallar uşaqlar üçün yeni risklər yaradır. Dünən təhlükəli linkdən qorunmağı öyrətmək kifayət edirdisə, bu gün uşağa gördüyü videonun, eşitdiyi səsin və oxuduğu məlumatın həqiqiliyinə şübhə ilə yanaşmağı da öyrətmək lazım gəlir.

Bütün bunların fonunda əsas hədəf rəqəmsal savadlı uşağın yetişdirilməsidir. Uşaq internetdə paylaşdığı fotonun, yazdığı mesajın və verdiyi məlumatın uzun müddət virtual məkanda qala biləcəyini anlamalıdır. Saxta xəbərlə etibarlı məlumatı, real istifadəçi ilə saxta profili, təhlükəsiz resursla şübhəli platformanı fərqləndirmək müasir insanın gündəlik bacarığına çevrilməlidir.

### ►Polis, məktəb, valideyn

Təbii ki, bu sahədə hüquq-mühafizə orqanlarının, polisin də üzərinə konkret vəzifələr düşür. Kibercinayətkarlığın üsulları dəyişdikcə polis üçün rəqəmsal imkanların əhəmiyyəti artıb. Saxta profillər, elektron yazışmalar, rəqəmsal ödənişlər və digər virtual izlər cinayətlərin araşdırılmasında mühüm sübut mənbəyidir. Daxili İşlər Nazirliyinin kibercinayətkarlıqla mübarizə və əhalinin rəqəmsal təhlükələr barədə məlumatlandırılması istiqamətində fəaliyyəti bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Tədris dövründə bütün təhsil müəssisələrində, hətta ucqar kənd məktəblərində belə polis əməkdaşlarının şagirdlərlə keçirdikləri görüşlər məhz buna xidmət edir.

Təhsil müəssisələrindən söz düşmüşkən, uşaqları qorumağın ikinci "cəbhəsi" məktəbdir. Şagird kompüter və telefondan istifadə etməyi bacardığı qədər rəqəmsal davranış qaydalarını da bilməlidir. Müəllimlər kibertəqibin və digər təhlükələrin ilkin əlamətlərini müəyyənləşdirə bilməli, belə hallarda ailə və aidiyyəti qurumlarla düzgün əlaqə yaratmalıdırlar. Ancaq, təbii ki, ən böyük məsuliyyət yenə ailənin üzərinə düşür. Uşağın internetdə keçirdiyi vaxtın əhəmiyyətli hissəsi valideynin birbaşa nəzarət edə bildiyi mühitdə keçir. Burada sərt nəzarətdən daha çox qarşılıqlı etimad əhəmiyyətlidir. Uşaq internetdə qarşılaşdığı problemi valideyninə danışmaqdan çəkinirsə, təhlükə uzun müddət gizli qala bilər. Xüsusilə şantaj və kibertəqib hallarında bu, vəziyyəti daha da ağırlaşdırır.

### ►Təhlükəsiz rəqəmsal dövlət quruculuğu

Mövzunun yekunu olaraq belə qənaətə gələ bilərik ki, bu işdə dövlətin, ailənin, məktəbin, medianın, polisin, vətəndaş cəmiyyətinin və texnologiya şirkətlərinin üzərinə böyük məsuliyyət düşür. Dövlət hüquqi çərçivəni yaradır, polis kibertəhlükələrə qarşı mübarizə aparır, məktəb uşağa bilik və davranış vərdişləri verir, ailə onun gündəlik həyatında etibarlı dayaq rolunu oynayır, texnologiya şirkətləri isə təqdim etdikləri platformaların təhlükəsizliyinə cavabdehlik daşıyır. Bunu təmin etmək təhlükəsiz rəqəmsal dövləti şərtləndirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rəqəmsal inkişaf və kibertəhlükəsizlik siyasəti, qəbul olunan strateji sənədlər, uşaqların zərərli informasiyadan qorunmasına dair hüquqi mexanizmlər və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə rəqəmsal transformasiyanın sürətləndirilməsi istiqamətində görülən işlər məhz bu perspektivə xidmət edir.

*R.Mehtiyev*

# Qardaşlıq və təcrübə mübadiləsi

## Hərbi İnstitutda türkiyəli zabitlərin yeni heyəti işə başladı

*(Əvvəli 1-ci səhifədə)*

Qarşılıqlı təcrübə mübadiləsi, müasir tədris metodlarının öyrənilməsi, eləcə də peşəkar hərbi kadrların hazırlanması istiqamətində həyata keçirilən birgə fəaliyyət bu əməkdaşlığın mühüm tərkib hissəsidir. Türkiyə Jandarm Baş Komandanlığının zabitlərinin Hərbi İnstitutda müəllim kimi fəaliyyət göstərməsi də iki qardaş ölkənin hərbi təhsil müəssisələri arasında əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edir. Birillik fəaliyyət müddətini başa vuran türk zabitləri institutun tədris prosesində yaxından iştirak edərək zəngin xidməti təcrübələrini və peşəkar biliklərini kursantlarla bölüşüblər. Tədris etdikləri mövzuların nəzəri əsaslarını praktiki nümunələrlə əlaqələndirməklə məşğələlərin daha səmərəli təşkilinə imkan yaradıb. Onların fəaliyyəti gələcəyin zabitlərinin peşə hazırlığının yüksəldilməsi ilə yanaşı, hərbi intizam, məsuliyyət, vətənpərvərlik və xidmətə sədaqət kimi mühüm mənəvi keyfiyyətlərin formalaşdırılmasına da töhfə verib.



Tədris prosesində nəzəri biliklərin xidməti fəaliyyətdən götürülmüş praktiki nümunələrlə əlaqələndirilməsi kursantların gələcək xidmət vəzifələrinin icrasına daha yaxşı hazırlanmasına, onlarda müstəqil qərarvermə, təşəbbüskarlıq və məsuliyyət kimi vacib keyfiyyətlərin formalaşdırılmasına müsbət təsir göstərib. Türkiyəli zabitlərin Hərbi İnstitutun professor-müəllim heyəti ilə qarşılıqlı əməkdaşlığı qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi, müasir metodiki yanaşmaların tətbiqi və təcrübə mübadiləsinin genişləndirilməsi baxımından da əhəmiyyətli olub. Bu əməkdaşlıq Hərbi İnstitutun tədris və elmi-pedaqoji potensialının inkişafına, eyni zamanda Daxili Qoşunlarda xidmət edəcək, müasir tələblərə cavab verən yüksək hazırlıqlı və peşəkar zabitlərin yetişdirilməsinə xidmət edib.

Fəaliyyət müddətini başa vuran Türkiyəli zabitlər onlara yaradılan şəraitə, göstərilən diqqət və səmimi münasibətə görə institutun rəhbərliyinə və kollektivinə minnətdarlıqlarını bildiriblər. Onlar Azərbaycanda keçirdikləri günlərin, eləcə də həmkarları ilə qazandıqları dostluq münasibətlərinin yaddaşlarında xoş xatirə kimi qalacağını qeyd ediblər. Mərasimdə Türkiyə Jandarm Baş Komandanlığının yeni zabit heyəti də institut kollektivinə təqdim olunub. Yeni heyətə qarşıda duran vəzifələr, tədris fəaliyyətinin əsas istiqamətləri barədə məlumat verilib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulanıb.

Qeyd olunub ki, Azərbaycan-Türkiyə hərbi təhsil sahəsində əməkdaşlığı yalnız bilik və təcrübə mübadiləsi ilə məhdudlaşmır, eyni zamanda iki qardaş ölkənin hərbi qulluqçuları arasında qarşılıqlı etimada, dostluğa və həmrəyliyə əsaslanan münasibətlərin daha da möhkəmlənməsinə xidmət edir.

# Qəsdən yanğın törədənlər məsuliyyətə cəlb olunur

## Bu istiqamətdə nəzarət tədbirləri gücləndirilib

Yay mövsümündə havanın hərarətinin yüksək olması, külək və kənd təsərrüfatı işlərinin intensivləşməsi yanğın riskini artırır. Xüsusilə əkin sahələri və meşə massivlərində ehtiyatsız davranış ciddi fəsadlara səbəb ola bilər.

Yanğınların qarşısının alınması və bu kimi hallara səbəb olan şəxslərin müəyyənləşdirilməsi istiqamətində polis əməkdaşları tərəfindən tədbirlər davam etdirilir. Son günlər Ağsu, Cəlilabad, Qəbələ, Ağcabədi, Sabirabad, Saatlı, Goranboy, Oğuz və İsmayıllı rayonlarında həyata keçirilən tədbirlər nəticəsində ümumilikdə 12 nəfərin yanğınlara səbəb olduğu müəyyənləşdirilərək barələrində qanunvericiliyə uyğun tədbirlər görülüb. Həmin hadisələr nəticəsində ümumilikdə 11 hektara yaxın əkin və kol-kos sahəsi qəsdən yandırılıb. Həmçinin Ağdam rayonunda baş vermiş yanğınlarla bağlı aparılan araşdırmalar zamanı PUA və video-müşahidə kameralarının görüntüləri təhlil edilərək əkin sahələrinin qəsdən yandırılması faktı müəyyənləşdirilib, şübhəli bilinən şəxs saxlanılıb. Qeyd edilən sonuncu faktla bağlı isə cinayət işi başlanıb. Yanğın təhlükəsizliyi qaydalarına əməl olunması və ehtiyatsız davranışların qarşısının alınması üçün nəzarət tədbirləri gücləndirilib.

# Cinayətkarlıqla mübarizədə cəmiyyətin rolu

## Təhlükəsizlik üçün polis-vətəndaş həmrəyliyi vacib amillərdəndir




Cinayətkarlıqla mübarizə deyəndə ilk növbədə göz önünə polis əməkdaşlarının fəaliyyəti gəlir. Çünki qanunvericiliklə ictimai asayişin qorunması, insanların təhlükəsizliyinin təmin edilməsi və cinayətlərin qarşısının alınması polis və digər aidiyyəti dövlət qurumlarının üzərinə düşür. Bu vəzifə onların həm hüquqi, həm də peşə borcudur. Lakin nəzərə almaq lazımdır ki, polisin peşəkarlığı və çevik fəaliyyəti ilə yanaşı, cəmiyyətin fəal dəstəyi də cinayətkarlığa mübarizənin effektivliyində mühüm rol oynayır. Çünki təhlükəsizlik yalnız polis əməkdaşlarının xidmət zamanı gördüyü iş deyil. Bu, hər bir vətəndaşın gündəlik davranışından, qanuna münasibətindən və ətrafında baş verənlərə nə dərəcədə həssas yanaşmasından da asılıdır.

Nümunəvi vətəndaş olmaq ilk növbədə, qanunlara hörmət etmək, hüquq pozuntusuna yol verməmək deməkdir. Lakin bununla məsələ bitmir. Vətəndaşın məsuliyyəti həm də şahidi olduğu qanunsuzluğa biganə qalmamasında, cinayət və ya digər hüquq pozuntusu barədə aidiyyəti qurumları məlumatlandırmasında da özünü göstərir. Bəzən vaxtında verilən bir məlumat cinayətin qarşısının alınmasına, bir insanın təhlükədən xilas edilməsinə və ya cinayətkarın qısa müddətdə müəyyənləşdirilməsinə imkan verir. Bu baxımdan vətəndaşın polisə verdiyi məlumat ictimai təhlükəsizliyə verilən bir töhfədir. Məhz burada polis-vətəndaş əməkdaşlığının əhəmiyyəti ortaya çıxır. Polis öz vəzifəsini yerinə yetirir, vətəndaş isə qanunlara əməl etməklə yanaşı, ictimai asayişin qorunmasına dəstək göstərir. Bu münasibətlər qarşılıqlı etimad üzərində qurulduqda nəticə də daha uğurlu olur. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizə qeyd edilən nüansları əyani şəkildə göstərən nümunələrdəndir. Bu istiqamətdə həyata keçirilən tədbirlər zamanı polis əməkdaşlarının fəaliyyəti ilə yanaşı, vətəndaşlardan daxil olan məlumatlar da mühüm rol oynayır. Cəmiyyətin narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mövqeyi gücləndikcə belə halların vaxtında müəyyənləşdirilməsi və qarşısının alınması üçün imkanlar da genişlənir. Daxili İşlər Nazirliyinin kollegiya iclaslarında da vətəndaşların bu istiqamətdə polis əməkdaşlarına göstərdikləri dəstək xüsusi vurğulanır. Yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirən şəxslərə, o cümlədən bloqçulara, digər ictimai fəallara, qeyri-hökumət təşkilatlarının nümayəndələrinə və media mənsublarına təşəkkür elan edilir.

Hüquq pozuntusunu görüb susmayan, qanunsuzluğa göz yummayan, aidiyyəti qurumlara məlumat verən hər bir vətəndaş əslində təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verir. Burada ictimai nəzarətin xüsusi rolu var. İnsanlar ətrafında baş verənlərə biganə qalmadıqda, hüquq pozuntularına qarşı prinsipial mövqe nümayiş etdirdikdə cəmiyyətdə qanuna hörmət və məsuliyyət hissi daha da möhkəmlənir. Hər kəs öz üzərinə düşən məsuliyyəti yerinə yetirdikdə təhlükəsizlik daha da etibarlı təmin olunur. Polis qanunun keşiyində dayanır, vətəndaş isə qanuna hörmət etməklə və cəmiyyətin təhlükəsizliyinə biganə qalmamaqla bu mübarizəyə dəstək verir.

*F.Məmmədova*

# Kibercinayətkar qruplaşmalara qarşı əməliyyat

## Hüquq-mühafizə orqanlarının adından kiberdələduzluq edən şəxslərin əlaqələri ifşa olunub

KMBİ
Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi

Daxili İşlər Nazirliyi Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi (KMBİ) tərəfindən saxta sosial şəbəkə profilləri və "WhatsApp" ani mesajlaşma hesabları vasitəsilə dövlət qulluqçuları, eləcə də hüquq-mühafizə orqanlarının əməkdaşlarının adından istifadə olunmaqla törədilən çoxsaylı kiberdələduzluq hallarına qarşı əməliyyat keçirilib.

Tədbirlərlə ölkə hüdudlarından kənarda fəaliyyət göstərən kibercinayətkar qruplaşmalarla əlbir olaraq qeyd edilən cinayət əməllərində şübhəli bilinən F.Əliyev, A.Zeynalov, T.Əliyev, F.Atakişiyev, R.Abdullayev, A.Məmmədov, R.Hacıyev və H.Əliyev saxlanılıb.

Araşdırmalarla müəyyən edilib ki, saxlanılan şəxslər xaricdə fəaliyyət göstərən kibercinayətkar qruplaşmaların üzvləri ilə əlaqə yaradaraq onları yerli mobil operatorlara məxsus elektron nömrələr, qanunsuz fəaliyyətlərdə istifadə etdikləri bank kartları və digər məlumatlarla təmin ediblər. Həmin şəxslər tərəfindən onlayn satışı təşkil edilən mobil nömrə və bank kartlarından qeyd edilən kibercinayət əməllərinin törədilməsində istifadə olunduğu müəyyən edilib. Əməliyyat zamanı saxlanılan şəxslərin qanunsuz yolla əldə etdikləri 2 mindən artıq bank kartı və elektron mobil nömrənin qeyd olunan cinayətkar əməllərə yönləndirildiyi aşkarlanıb. Həmin kart və mobil nömrələrin bəzilərinin qanunsuz onlayn qumar və kazino oyunlarının təşkili zamanı istifadə edildiyi də məlum olub.

Hazırda saxlanılan şəxslərin ətrafında əməliyyat-istintaq və əməliyyat-texniki tədbirlər aparılır. Xarici ölkələrdə fəaliyyət göstərən kibercinayətkar qruplaşmaların digər iştirakçılarının müəyyən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində də tədbirlər davam etdirilir. Bir daha vətəndaşlara müraciət edərək bildiririk ki, bank rekvizitlərinin və mobil nömrələrin üçüncü şəxslərə cinayət əməllərində istifadə olunması məqsədilə təqdim edilməsi yolverilməzdir. Əgər bank kartınızdan və ya mobil nömrənizdən qeyri-qanuni məqsədlərlə istifadə edildiyini müəyyən etmisinizsə, hesabınıza mənbəyi şübhəli olan pul vəsaitləri köçürülübsə, mobil nömrənizə şübhəli SMS-lər daxil olursa və ya sizə ödəniş müqabilində bank kartı məlumatlarınızı təqdim etmək təklif edilirsə, ayıq-sayıqlıq nümayiş etdirməyiniz və dərhal polis orqanlarına məlumat verməyiniz tövsiyə olunur.

# Avtomobildə təhlükəsizlik nədən başlayır?

## Sürücünün diqqəti qəzaların qarşısını alan əsas şərtlərdəndir

***Gündəlik həyatımızda avtomobildən demək olar ki, hər gün istifadə edirik. İşə və ya hər hansı bir yerə gedərkən, ailə üzvlərimizi, övladlarımızı, yaxınlarımızı bir ünvandan digərinə apararkən avtomobil həyatımızın ayrılmaz hissəsinə çevrilir. Bəzən isə tələsik və ya diqqətsiz davranaraq sərnişinlərin təhlükəsizliyini təmin edən sadə qaydaları nəzərdən qaçırırıq. Halbuki avtomobildə yol verilən hər ehtiyatsız davranış, xüsusilə uşaqların daşınması zamanı, gözlənilməz və ağır nəticələrə səbəb ola bilər.***



Avtomobildə təhlükəsizliyin təmin olunması ilk növbədə sürücünün və valideynlərin məsuliyyətli davranışından asılıdır. Sürücünün yol hərəkəti qaydalarına əməl etməsi ilə yanaşı, maşının salonunda olan şəxslərin də təhlükəsizlik tələblərinə riayət etməsi mühüm əhəmiyyət daşıyır. Bu baxımdan səfər zamanı təhlükəsizlik kəmərindən istifadə olunması, uşaqların avtomobildə düzgün və etibarlı şəkildə yerləşdirilməsi, onların davranışına nəzarət edilməsi vacibdir. Təəssüf ki, gündəlik həyatda hərəkətdə olan avtomobillərdə sərnişinlərin təhlükəsizlik kəmərindən istifadə etməməsi, uşaqların avtomobilin pəncərəsindən bədənlərinin hər hansı hissəsini çölə çıxarması, oturacaqlarda düzgün yerləşməməsi və hərəkət zamanı ayaqüstə dayanması kimi təhlükəli hallara rast gəlinir. İlk baxışdan adi görünən bu davranışlar qəfil tormozlanma, kəskin manevr və ya yol-nəqliyyat hadisəsi zamanı ciddi xəsarətlərə səbəb ola bilər. Xüsusilə də uşaqların avtomobildə daşınması zamanı böyüklərin üzərinə daha böyük məsuliyyət düşür. Onların yaş və çəkilərinə uyğun təhlükəsizlik vasitələrindən, o cümlədən uşaq oturacaqlarından istifadə olunmalı, təhlükəsizlik kəmərinin düzgün bağlanmasına diqqət yetirilməlidir. Valideynlərin bu məsələdə şəxsi nümunəsi də mühüm rol oynayır. Böyüklər təhlükəsizlik kəmərindən istifadə etdikdə və yol hərəkəti qaydalarına məsuliyyətlə yanaşdıqda, uşaqlarda da bu vərdişin formalaşmasına şərait yaranır. Sürücülər isə avtomobili hərəkətə gətirməzdən əvvəl bütün sərnişinlərin təhlükəsiz şəkildə yerləşdiyinə əmin olmalı, azyaşlıların daşınması zamanı daha diqqətli davranmalıdırlar. Hərəkət zamanı sürəti yol və hava şəraitinə uyğun seçmək, qəfil manevrlərdən çəkinmək və diqqəti yayındıran davranışlara yol verməmək də təhlükəsizliyin əsas şərtlərindəndir.

Unutmaq olmaz ki, avtomobildə təhlükəsizlik yalnız sürücünün deyil, bütün sərnişinlərin məsuliyyətidir.

# Qanunsuz onlayn qumar şəbəkəsi çökdürüldü

## Külli miqdarda pul vəsaitinin leqallaşdırılması müəyyən olundu

Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi (KMBİ) tərəfindən ölkə ərazisində qanunsuz onlayn mərc və kazino oyunları təşkil edən şəxslərə qarşı əməliyyatlar davam etdirilir. Kiberpolisin həyata keçirdiyi tədbirlərlə saxlanılan Z.Nərimanov və qardaşı F.Nərimanovun rəhbərliyi ilə ölkə ərazisində fəaliyyəti qadağan olunmuş "Xbet" və "MostBet" platformaları üzərindən vətəndaşların qanunsuz mərc oyunlarına cəlb edildiyi müəyyən olunub. Həmin şəxslər "Telegram" platformasında yaratdıqları "AzeCash" səhifəsi vasitəsilə qanunsuz onlayn mərc və kazino oyunları təşkil ediblər. Təqsirləndirilən şəxslər paytaxtın Xətai rayonu ərazisində mənzil icarəyə götürərək həmin ünvanda işçilər yerləşdirib, onları qanunsuz fəaliyyət üçün zəruri olan texniki vasitələr, bank kartları və mobil telefonlarla təmin ediblər.

Əməliyyat tədbirlərinin davamı olaraq həmin şəxslərlə cinayət əlaqəsi yaratmaqda şübhəli bilinən dəstənin digər üzvləri – O.Hüseynov, Z.Şirinov və E.Məmmədovun da saxlanılmaları təmin edilib.İstintaq zamanı müəyyən edilib ki, dəstə üzvləri "Xbet" və "MostBet" platformaları vasitəsilə əldə etdikləri külli miqdarda pul vəsaitini müxtəlif yollarla leqallaşdırıblar. Onların qanunsuz mərc və qumar oyunlarının təşkili yolu ilə ümumilikdə 10 milyon manat həcmində qanunsuz maliyyə dövriyyəsi həyata keçirdikləri müəyyən olunub.

Faktla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Z.Nərimanov və F.Nərimanova, eləcə də digər təqsirləndirilən şəxslərə ittiham elan edilib. Məhkəmənin qərarı ilə onlar barəsində həbs, həmçinin digər növdən olan qətimkan tədbirləri seçilib.

# Narkotacirlər ifşa edildi

## 46 kiloqram narkotikin qanunsuz dövriyyəsinin qarşısı alındı





DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin satışının qarşısının alınması məqsədilə əməliyyatlar davam etdirilir.

Belə ki, Qaradağ və Suraxanı rayonlarında keçirilən tədbirlərlə əvvəllər narkotiklərlə əlaqəli cinayətinə görə məhkum olunan C.Heydərov, M.İbrahimov və E.Əsgərov saxlanılıblar. Onlardan ümumilikdə 46 kiloqram narkotik vasitə aşkarlanıb.

Saxlanılan şəxslərin xaricdə yaşayan narkotacirlərin tapşırıqları ilə qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən narkotiklərin qanunsuz dövriyyəsini təşkil etdikləri müəyyən edilib.

Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Məsuliyyətdən yayına bilmədi

## Qayda pozan sürücü həbs olundu



Polis əməkdaşları tərəfindən paytaxtın Xətai rayonunda yol hərəkəti qaydalarını kobud şəkildə pozub avtoxuliqanlıq edərək özü və digər hərəkət iştirakçılarının həyat və sağlamlığına real təhlükə yaradan moped sürücüsü - 23 yaşlı F.Ağayev müəyyən olunaraq saxlanılıb.

Bakı şəhər DYP İdarəsindən bildirilib ki, sürücü barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə əsasən protokol tərtib edilərək baxılması üçün aidiyyəti məhkəməyə göndərilib.

Məhkəmənin qərarı ilə sürücü F.Ağayevin nəqliyyat vasitəsini idarəetmə hüququ 1 il müddətinə məhdudlaşdırılıb və o, 15 sutka inzibati qaydada həbs edilib.

# Cinayət axtarışının görünməyən tərəfi

## Hər nəticənin arxasında uzun və səbir tələb edən proses dayanır

**Polisin işi çox vaxt hadisə yerinə gələn avtomobil, patrul xidməti, keçirilən əməliyyat və ya saxlanılan şəxslə assosiasiya olunur. Lakin bunlar işin yalnız görünən hissəsidir. Əslində, hər bir hadisənin arxasında saatlarla davam edən araşdırma, sənədləşmə, məlumatların yoxlanılması və bəzən böyük səbir tələb edən gözləmə dayanır. İnsanlar çox vaxt nəticəni görür, amma həmin nəticəyə aparan yolu görmürlər. Hadisə yerində bir neçə dəqiqə davam edən prosesin arxasında saatlarla davam edən araşdırma dayana bilər. Bir şəxsin müəyyən edilməsi üçün müxtəlif məlumatların müqayisə olunması, şahidlərin dindirilməsi, görüntülərin araşdırılması və əldə olunan sübutların təhlili tələb oluna bilər.**

### *Hadisə yerindən sonra*

Cinayət hadisəsi baş verdikdə polis əməkdaşının işi hadisə yerinə gəlməklə bitmir. Əksinə, əsas mərhələlərdən biri məhz bundan sonra başlayır. Hadisə yerində izlərin qorunması, ərazinin diqqətlə nəzərdən keçirilməsi, aşkar olunan əşyaların sənədləşdirilməsi və digər materialların toplanması xüsusi diqqət tələb edir. Bəzən ilk baxışda əhəmiyyətsiz görünən bir detal araşdırmanın gedişində mühüm əhəmiyyət kəsb edə bilər.

Bu prosesdə tələskənliyə yol vermək olmaz. Çünki hadisə yerində dəyişdirilən və ya itirilən hər hansı iz sonradan araşdırmanın imkanlarını məhdudlaşdıra bilər. Buna görə də hər bir detal diqqətlə nəzərdən keçirilir, əldə olunan məlumatlar ardıcıllıqla yoxlanılır.

### *Saatlarla davam edən axtarış*

Polisin gündəlik fəaliyyətinin böyük hissəsi insanların düşündüyündən daha sakit, lakin səbir və diqqət tələb edən proseslərdən ibarətdir. Məlumatların toplanması, müxtəlif faktların yoxlanılması, müşahidə kameralarının görüntülərinin araşdırılması və şəxslərin müəyyənləşdirilməsi bəzən uzun müddət davam edir. Bir neçə saniyəlik görüntüdə mühüm detalı müəyyən etmək üçün saatlarla videomüşahidə materiallarına baxmaq lazım gələ bilər. Eyni zamanda müxtəlif mənbələrdən əldə olunan məlumatlar bir-biri ilə müqayisə edilir, faktlar dəqiqləşdirilir və hadisənin bütün istiqamətləri araşdırılır. Kənardan baxanda nəticə sadə görünə bilər: şəxs müəyyən edildi, hadisənin üstü açıldı. Lakin bu nəticənin arxasında çoxsaylı kiçik, lakin vacib addımlar dayanır.

### *Görünməyən məsuliyyət*

Polis əməkdaşının gündəlik fəaliyyətində diqqətdən kənarda qalan əsas məqamlardan biri də məsuliyyətdir. Qəbul edilən qərarlar insanların təhlükəsizliyinə, əmlakına və bəzən həyatına birbaşa təsir göstərə bilər. Bu səbəbdən polis əməkdaşından yalnız çeviklik deyil, həm də soyuqqanlılıq, diqqət və düzgün qərar qəbul etmək bacarığı tələb olunur. Gərgin vəziyyətdə emosiyalara qapılmadan hərəkət etmək peşənin ən çətin tərəflərindən biridir. Bəzən əməkdaşın qarşısında saniyələr ərzində qərar verməli olduğu vəziyyət yaranır. Həmin an verilən qərarın nəticəsi isə uzun müddət özünü göstərə bilər. Bu baxımdan polis xidmətində peşəkarlıq yalnız hadisəyə çevik müdaxilə ilə deyil, həm də düzgün qərar vermək məsuliyyəti ilə ölçülür.

### *Gecənin də öz növbəsi var*

Polis xidməti iş saatları ilə məhdudlaşmır. İnsanların əksəriyyətinin evində olduğu saatlarda da küçələrdə patrul xidməti davam edir, çağırışlar qəbul olunur, hadisələrə müdaxilə edilir.

Bayram günləri, həftə sonları və insanların istirahət etdiyi vaxtlarda da polis əməkdaşlarının xidməti davam edir. Bəzən bir gecə ərzində bir neçə fərqli hadisəyə müdaxilə etmək, tamamilə fərqli xarakter daşıyan vəziyyətlərdə qərar vermək lazım gəlir. Bu iş rejiminin ən çətin tərəflərindən biri isə hər bir çağırışa eyni diqqət və məsuliyyətlə yanaşmaqdır. Çünki polis üçün günün hansı saatı olmasından asılı olmayaraq, təhlükəsizliyin təmin edilməsi əsas vəzifə olaraq qalır.

### *İnsan hekayələrinin digər tərəfi*

Polisin gündəlik fəaliyyətində yalnız cinayət hadisələri deyil, müxtəlif insan hekayələri də var. İtkin düşmüş şəxsin axtarışı, ailə münaqişəsi, köməyə ehtiyacı olan insan, təhlükəli vəziyyətə düşmüş vətəndaş - bütün bunlar polis əməkdaşının qarşılaşdığı fərqli situasiyalardır. Bəzən nəticə bir neçə dəqiqə ərzində əldə olunur, bəzən isə axtarış uzun müddət davam edir. Hər bir halda əməkdaşın qarşısında konkret insan taleyi dayanır. Məhz bu məqam polis peşəsinin başqa bir tərəfini göstərir: polis yalnız cinayətlə mübarizə aparan deyil, eyni zamanda insanların təhlükəsizliyinin təmin olunmasına, onların hüquq və azadlıqlarının qorunmasına xidmət edən bir strukturdur.

### *Görünməyən əməyin görünən nəticəsi*

Polis işinin cəmiyyət tərəfindən ən çox görünən hissəsi hadisənin nəticəsidir. Səbir, diqqət, saatlarla davam edən araşdırma, gecə növbələri, hadisə yerində toplanan kiçik detallar və hər bir qərarın arxasında dayanan məsuliyyət bu peşənin görünməyən tərəfləridir.

Bəzən bir cinayətin üstünün açılması bir böyük addımla deyil, onlarla kiçik addımın düzgün atılması ilə mümkün olur. Hər bir məlumatın yoxlanılması, hər bir izin araşdırılması və hər bir detalın nəzərdən keçirilməsi sonda hadisənin ümumi mənzərəsinin formalaşmasına imkan verir.

Polisin işi yalnız hadisə baş verəndə görünmür. Əslində, qarşısı alınan bir hadisənin, vaxtında göstərilən köməyin və ya təhlükənin aradan qaldırılmasının arxasında da görünməyən böyük əmək dayanır. Çünki polis əməkdaşının fəaliyyətinin əsl nəticəsi yalnız baş verən hadisələrdə deyil, qarşısı vaxtında alınan təhlükələrdə görünür.

*A.Tahirova*

# Polis əməkdaşının beynəlxalq uğuru

## Həmkarımız yarışdan medalla qayıdıb



Daxili İşlər Nazirliyinin əməkdaşı Türkiyənin Hatay vilayətinin Yayladağı rayonunda keçirilən ağır çəkili idmançılar arasında beynəlxalq güləş yarışında uğurla çıxış edib.

Turnir türk dünyasının müxtəlif ölkələrindən olan idmançıları bir araya gətirib. Yarışlar 8 və 9 avqust tarixlərində keçirilən 24-cü Ənənəvi Mədəniyyət, İncəsənət və Güləş Festivalı çərçivəsində təşkil olunub. Azərbaycan Milli İdman Növləri Assosiasiyasının heyətində yarışan Sumqayıt Şəhər Polis İdarəsinin Post-Patrul Xidmətinin tağım komandiri, polis baş leytenantı Eyvaz Nəsibli fəxri kürsüyə yüksəlib. O, çəkisi 90 kiloqramdan artıq olan idmançılar arasında mübarizə apararaq üçüncü yeri tutub və bürünc medal qazanıb.

Azərbaycanın digər təmsilçisi Mirfəttah Seyidəliyev isə qızıl medala sahib çıxıb. Beləliklə, Azərbaycan təmsilçiləri Hataydakı beynəlxalq yarışı bir qızıl və bir bürünc medalla başa vurublar. Bu nəticə Azərbaycan yığmasına komanda hesabında üçüncü yeri qazandırıb.

# Polislər güclərini sınayıblar

## Çoxnövçülük üzrə zona yarışlarına start verilib

Daxili işlər orqanlarının əməkdaşları arasında güc çoxnövçülüyü üzrə zona yarışları keçirilib. Yarışlarda polis əməkdaşları üzgüçülük, turnikdə dartınma və 1000 metr məsafəyə qaçış üzrə güclərini sınayıblar.

Bakıda 8 komandanın iştirakı ilə keçirilən yarışlarda Əlahiddə Çevik Polis Alayının komandası birinci, Bakı Şəhər Baş Polis İdarəsinin komandası ikinci, Daxili Qoşunların Baş İdarəsinin komandası isə üçüncü yerə çıxıb.

Xaçmazda keçirilən yarışlarda isə12 komanda mübarizə aparıb. Gərgin idman mübarizəsinin yekununda Sumqayıt Şəhər Polis İdarəsinin komandası birinci, Abşeron Rayon Polis İdarəsinin komandası ikinci, Qubadlı Rayon Polis Şöbəsinin komandası isə üçüncü yerə çıxıb.

Göygöldə təşkil olunan zona yarışlarında da 19 komanda çıxış edib. Yekun nəticələrə əsasən Gəncə Şəhər Baş Polis İdarəsinin komandası birinci yeri tutub. Kəlbəcər Rayon Polis Şöbəsinin komandası ikinci, Naftalan Şəhər Polis Şöbəsinin komandası üçüncü pillədə qərarlaşıb.

Şirvan şəhərində keçirilən yarışda ev sahibi olan polis şöbəsinin komandası birinci, Cəlilabad Rayon Polis Şöbəsi ikinci, Biləsuvar Rayon Polis Şöbəsi üçüncü olub. Yarışa 18 rayondan komanda qatılıb.

Qeyd edək ki, zona yarışlarının qalibi olan komandalar avqustun sonunda keçiriləcək respublika çempionatında iştirak etmək hüququ qazanıblar.

# Müasir texnologiyaların yaratdığı yeni təhlükələr

## Böyük Britaniyada 3D printerdən silah hazırlayan şəxs həbs edilib



Texnologiyanın sürətli inkişafı gündəlik həyatın bir çox sahəsində olduğu kimi, hüquq-mühafizə orqanlarının qarşısında da yeni vəzifələr yaradır. Bir vaxtlar yalnız sənaye və istehsalat məqsədləri üçün istifadə olunan 3D printerlər son illərdə cinayətkarların da diqqətini cəlb edir. Böyük Britaniyada baş verən hadisə isə bu texnologiyanın qanunsuz məqsədlərlə istifadəsinin hansı nəticələrə səbəb ola biləcəyini bir daha göstərib.

Ölkənin Milli Cinayət Agentliyinin apardığı araşdırma nəticəsində Telford şəhərində yaşayan 62 yaşlı kişi qanunsuz odlu silah hazırlamaqda təqsirli bilinib. Onun yaşadığı ünvanda müxtəlif avadanlıqlar və silah hissələri aşkarlanıb. Polis əməkdaşları evə daxil olduqları zaman silahın hazırlanması prosesi hələ başa çatmamışdı.

Polisin keçirdiyi əməliyyat zamanı evdə iki 3D printer, müxtəlif silah hissələri və digər avadanlıqlar götürülüb. Əməliyyatçılar müəyyən ediblər ki, həmin avadanlıqlardan qanunsuz silah hazırlanması məqsədilə istifadə olunub.

Evdə aparılan araşdırmalar zamanı həmçinin pnevmatik tüfəng və digər döyüş sursatları da aşkarlanıb. Polis əməkdaşları evə daxil olduqda qanunsuz silahın hazırlanmasının başa çatmasına təxminən 15 dəqiqə qaldığı müəyyən edilib. Hüquq-mühafizə orqanlarının vaxtında müdaxiləsi nəticəsində silahın hazır vəziyyətə gətirilməsinin qarşısı alınıb. Axtarış yalnız evdəki əşyalarla məhdudlaşmayıb. İstintaqçılar şübhəlinin kompüter və digər elektron cihazlarını da araşdırıblar. Burada silahların hazırlanması ilə bağlı materiallar və müxtəlif sənədlər aşkar edilib. Elektron sübutlar istintaq üçün mühüm əhəmiyyət daşıyıb və şəxsin texnologiyadan hansı məqsədlə istifadə etdiyini müəyyənləşdirməyə imkan verib. David Boylet barəsində aparılan istintaq araşdırmaları təxminən iki il davam edib və iş məhkəməyə göndərilib. O, qanunsuz olaraq odlu silah-sursat saxlama ittihamlarını qəbul edib və məhkəmənin qərarı ilə azadlıqdan məhrum edilib.

Bu hadisə hüquq-mühafizə orqanları qarşısında müasir dövrün yeni çağırışlarını bir daha ortaya qoyur. Texnologiyanın imkanları genişləndikcə cinayətkarların da bu imkanlardan istifadə üsulları dəyişir. Bu reallıq polis qarşısında yeni yanaşmaların formalaşdırılmasını, texnoloji yeniliklərin daim izlənilməsini və cinayətlərin araşdırılmasında müasir metodlardan daha geniş istifadə olunmasını zəruri edir. Bu isə hüquq-mühafizə orqanlarından texnoloji yeniliklərə uyğunlaşmağı və yeni çağırışlara çevik reaksiya verməyi tələb edir.

Eyni zamanda, texnoloji imkanlardan təhlükəsiz və qanuni şəkildə istifadə edilməsi cəmiyyətin təhlükəsizliyinin təmin olunmasında mühüm əhəmiyyət daşıyır.

*Aytən Tahirova*

# INTERPOL 13 ölkədə əməliyyat keçirib

## Əməliyyat zamanı 201 nəfər saxlanılıb



Yaxın Şərq və Şimali Afrikanın 13 ölkəsində kibercinayətkarlara qarşı genişmiqyaslı beynəlxalq əməliyyatlar keçirilib. Beynəlxalq Polis Təşkilatı INTERPOL tərəfindən koordinasiya edilən əməliyyat "Ramz" şərti adı altında baş tutub. Əməliyyatlar zamanı 201 nəfər saxlanılıb, 382 şübhəlinin kimliyi müəyyən edilib. Əməliyyatın əsas istiqamətlərindən biri fişinq hücumlarının qarşısının alınması olub. Bundan başqa, zərərli proqram təminatlarının yayılması və onlayn maliyyə fırıldaqları da araşdırılıb. İstintaqçılar müxtəlif ölkələrdə kibercinayətkarların istifadə etdiyi serverləri müəyyənləşdiriblər. Əməliyyatlar zamanı ölkələr arasında təxminən 8 min məlumat və kəşfiyyat xarakterli materialın qarşılıqlı mübadiləsi həyata keçirilib.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: ANAR QAFAROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik